**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AKADEMİK Z.BÜNYADOVUN TƏDQİQATLARINDA AZƏRBAYCANIN ORTA ƏSRLƏR TARİXİ MƏSƏLƏLƏRİ

İxtisas: 5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları

Elm sahəsi: Tarix

İddiaçı: **Elməddin Əli oğlu Quliyev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru
**Nailə Məmmədəli qızı Vəlixanlı**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, dosent
**Tahirə Dadaş qızı Həsənzadə**

tarix üzrə fəlsəfə doktoru
**Lamiyyə Səxavət qızı Namazova**

tarix üzrə fəlsəfə doktoru
**Nurlan Paşa oğlu Nəsirov**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/ 1 Birdəfəlik Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, dosent
**Vaqif Şirin oğlu Abışov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Son 25 il ərzində Azərbaycan xalqının tarixinin ayrı-ayrı məsələlərinin araşdırılması istiqamətində xeyli uğurlar qazanılmışdır. Ulu Öndər Heydər Əliyev AMEA-nın əməkdaşları ilə görüşündə xalqımızın tarixinə yeni, obyektiv baxışın işlənib hazırlanmasını tövsiyə etmiş, bu tarixin yenidən tədqiq edilməsinin zəruri olduğunu göstərmiş, vaxtilə yazılmış tarix əsərlərinin çoxunun sovet ideologiyasının təsiri ilə yazıldığını, dövlət müstəqilliyini bərpa etmiş xalqımızı qane etmədiyini də qeyd etmişdir.[1]

Azərbaycan xalqının orta əsrlərlə bağlı olan tarixinin araşdırılmasında müstəsna rolu olmuş tarixçilərin elmi fəaliyyətinin tədqiqi bu baxımdan Vətən tarix elmi qarşısında duran aktual, mühüm vəzifələrdəndir. Azərbaycanda tarix elminin, medievistikanın xalqımızın ümdə tələblərinə uyğun surətdə inkişaf etdirilməsində müstəsna rolu olmuş tədqiqatçılar sırasında Z.M.Bünyadov (1923-1997) xüsusi yer tutur.

Görkəmli Azərbaycan tarixçi-şərqşünası Z.M.Bünyadovun zəngin elmi irsi müasir dövrdə xüsusi əhəmiyyətə malikdir və öz aktuallığı ilə diqqəti cəlb edir. O, fundamental tədqiqat əsərləri ilə Azərbaycan şərqşünaslıq məktəbinin şöhrətini ölkəmizdən uzaqlarda yaymış, dünyada Orta əsrlər Şərqi, Ərəb xilafəti, Azərbaycan, Qafqaz və Orta (Mərkəzi) Asiya tarixi üzrə görkəmli mütəxəssis kimi tanınmış, geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.[2] Hal-hazırda Azərbaycan şərqşünaslığında, tarix elmində tədqiqatlarının əhatə dairəsinə görə onunla müqayisə oluna biləcək araşdırıcı yoxdur. Z.M.Bünyadov 45 illik elmi fəaliyyəti dövründə 450-dən çox elmi əsər yazmışdır. Bu əsərlər arasında bir neçə monoqrafiya, çoxlu sayda tərcümələr, həmin tərcümələrə şərhlər, elmi əsərlərə resenziyalar, Azərbaycan Sovet Ensiklopediyası üçün hazırlanmış onlarla məqalə diqqəti cəlb edir.[3] Z.M.Bünyadov ayrı-ayrı dillərdə

---

[1] "Azərbaycan" qəzeti, 1 fevral 1997-ci il.

[2] Baxşəliyeva, G.B. Akademik Ziya Bünyadovun həyat və yaradıcılıq yolu // Orta əsrlər Şərqinin tarixşünaslığı və mənbəşünaslığı. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadovun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi simpoziumun materialları. – Bakı: Elm,– 7-8 may 2012, – s. 3-10.

[3] Baxşəliyeva, G.B. Akademik Ziya Bünyadovun həyat və yaradıcılıq yolu // Orta əsrlər Şərqinin tarixşünaslığı və mənbəşünaslığı. Azərbaycan Milli Elmlər

yazılmış çoxsaylı qaynaqlara əsaslanaraq özündən əvvəlki bütün tədqiqatçıların orta əsrlərin dini-ideoloji həyatı və etnik mənzərəsi, sosial və dövlət quruluşu, sərhəd məsələləri haqqında müddəalarını təhlil etmiş, onların qüsurlarını göstərmişdir.[4] N.M.Vəlixanlının sözləri ilə desək, tariximizin hər bir mərhələsi həmişə onun diqqət mərkəzində idi[5]. Onun əsərləri yeni tədqiqatçılar nəsli üçün dəyərli vəsait olmuşdur. Vətən tarix elmində "tarixi coğrafiya" sahəsinin yaranması və təşəkkülü də məhz Z.M.Bünyadovun fəaliyyəti ilə bağlıdır.[6]

Z.M.Bünyadov elmi fəaliyyəti, fundamental tədqiqat əsərləri ilə dünyada görkəmli mütəxəssis kimi tanınmış, geniş oxucu kütləsinin məhəbbətini qazanmışdır.[7] Z.Bünyadov tarixi tədqiqatın yeni üsulunun əsasını qoymuşdu, buna görə də həmin üsula yanaşma birmənalı deyildi. Bu sahədə biz dünya elmi dəyərlərinə əsaslanan görkəmli alimlərin rəyləri ilə yanaşı[8] elmilikdən çox uzaq olan fikirlərlə də rastlaşırıq.[9] Son

---

Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadovun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi simpoziumun materialları. – Bakı: Elm,– 7-8 may 2012, – s. 3-10; Bünyadov, Z.M. Biblioqrafiya. – Bakı: Nurlan, – 2004, s.11.

[4] Baxşəliyeva, G.B. Akademik Ziya Bünyadovun həyat və yaradıcılıq yolu // Orta əsrlər Şərqinin tarixşünaslığı və mənbəşünaslığı. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadovun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi simpoziumun materialları. – Bakı: Elm,– 7-8 may 2012, – s. 3-10; Bünyadov, Z.M. Biblioqrafiya. – Bakı: Nurlan, – 2004, s.11.

[5] Велиханлы, Н.М. Зия Муса оглы Буниятов – выдающийся ученый Азербайджана // https://yadi.sk/i/KtZIFxtiiTpGv

[6] Историческая география Азербайджана / Под ред. З.М.Буниятова. – Баку: Элм, – 1987. – 146 с.

[7] Абдулхалимов, Б. Вклад академика З.М.Буниятова в изучение истории Центральной Азии // Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadovun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi simpoziumun materialları (Bakı, 7-8 may 2012). Orta əsrlər Şərqinin tarixşünaslığı və mənbəşünaslığı. – Bakı: Elm, – 2012, – c.13.

[8] Бейлис, В.М. Целеустремленный и плодотворный труд (Зия Мусаевич как источниковед и историк) // Ölümdən güclü. – Bakı: Elm, – 2002, – s.584.

[9] Буниятов, З.М. Еще один, заморский, подпевала, или «разыскания» Роберта Хевсена // https://yadi.sk/i/fiUw31F9iTWXX ; Меликов, Р.С. Из истории зороастризма в Азербайджане // Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadovun 90 illiyinə həsr

50 il ərzində erməni “alimlərinin” Z.Bünyadovun elmi əsərlərini, onun şəxsiyyətini qaralamağa çalışan hay-küyü səngimir. Belə “mütəxəssislərin” sayı ilbəil artmaqdadır. Vaxtilə Z.M.Bünyadov canfəşanlıq edən həmin şəxslərə layiqli cavab vermişdir: “Sadə bir həqiqəti yada salmaq lazımdır ki, qədim dövr və orta əsrlər tarixi sahəsində elmi əsərin yazılması müəllifdən qədim dilləri bilməyi, xüsusi dil hazırlığını, mənbəşünaslıq və mətnşünaslıq üzrə tarixi materialın dərk olunmasını tələb edir”.[10] Həmin “tədqiqatçılar” Z.Bünyadovdan, onun elmi irsindən elə qorxurdular ki, ona qarşı dəstə ilə çıxış edir, oxucuları çaşdırmağa çalışırdılar və bu hallara hal-hazırda təsadüf edilir.[11]

Dünya şərqşünaslığına bənzərsiz əsərlər bəxş etmiş Z.M.Bünyadovun elmi irsi hələ onun sağlığında bir çox tədqiqatçıların araşdırma obyekti olmuşdur.[12] 1999-cu ildə alimin “Seçilmiş əsərləri” üç cilddə rus dilində nəşr edilərkən tərtibçi bu nəşrin son cildinə akademikin 214 əsərinin siyahısını da daxil etmişdir. Alimin əsərlərinin tam siyahısı 2004-cü ildə nəşr edilmişdir. Həmin biblioqrafiyaya Z.Bünyadovun 540 əsərinin siyahısı daxil olunmuşdur. Alimin elmi irsi nəzərdən keçirilərkən onu qərəzlə tənqid etmiş erməni tarixçilərinin əsərlərinə, müddəalarına xüsusi diqqət yetirilməlidir. Biz bu problemləri işıqlandırmaqla bir daha görkəmli Azərbaycan tarixçisinin Vətənə, xalqına nə dərəcədə xidmət etdiyini müəyyənləşdirə bilirik.

Təqdim olunan dissertasiya işi Vətən tarix elmində görkəmli alimin orta əsrlər tarixi ilə bağlı olan zəngin elmi irsinin xüsusi, kompleks şəkildə tədqiq edilməsi sahəsində ilk cəhddir. Dissertasiya işinin yazılması prosesində görkəmli alim Z.M.Bünyadovun elmi monoqrafiyaları, məqalələri və tərcümə etdiyi qaynaqlar, eləcə də onun elmi dövriyyəyə

---

olunmuş beynəlxalq elmi simpoziumun materialları. Orta əsrlər Şərqinin tarixşünaslığı və mənbəşünaslığı. – Bakı: Elm, – 7–8 may 2012, – c. 146-149.

[10] Bünyadov Z.M. Biblioqrafiya. Bakı: Nurlan, 2004. 128 s.

[11] Bünyadov Z.M. Biblioqrafiya. Bakı: Nurlan, 2004. 128 s.

[12] Ibn Khordadbeh. Kitab al-masalik val-mamalik / Ibn Khordadbeh. – Leyden: M. de Gouye, – 1889; Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. – Bakı: Nurlan, – 2005, – s.87; Буниятов, З.М. О 30-м трактате Абу-л-Касима Халафа ибн Аббаса аз-Захрави // – Москва: Вестник АМН СССР. – 1980, – т. 9, – с.75-78; Буниятов, З.М. Сведения о кометах, звездах, метеорах и затмениях в некоторых средневековых арабских источниках // Известия АН Азербайджанской ССР. Серия физико-технических и математических наук. – 1977, – №4, – с. 106-112.

daxil etdiyi, həmin vaxtadək tədqiqatçılara məlum olmayan ərəbdilli, farsdilli, ermənidilli, gürcüdilli mənbələr və Osmanlı qaynaqlarından geniş istifadə edilmişdir. Həmin əsərlər və qaynaqlar Azərbaycan xalqının orta əsrlər tarixinin bir çox mühüm problemlərinin həlli üçün əsas vasitədir. Alim tarixi və dini-ideoloji hadisələr haqqında məlumatlar verən qaynaqlarla yanaşı coğrafiyaya, dilçiliyə, seysmologiyaya, təbabətə və astrofizikaya həsr olunmuş əsərlərdən istifadə etmiş, bu əsərlərə şərhlər yazmışdır. Alimin elmi dövriyyəyə daxil etdiyi yazılı qaynaqları şərti olaraq bir neçə qismə ayırmaq olar: 1) Müsəlman müəlliflərin əsərləri; 2) Azərbaycan tarixi haqqında yerli xristian mənbələri və ermənidilli qaynaqlar; 3) digər xristian müəlliflərin əsərləri. Bu əsərlərin təhlilinə tədqiqatımızın üçüncü fəsli həsr edilmişdir.

Z.M.Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" monoqrafiyası Sovet tarix elmində Vətən tarixinin Ərəb Xilafəti dövrünə həsr olunmuş ilk böyük tədqiqat əsəri idi. Müəllif ərəb işğalları ərəfəsində Azərbaycan xalqının ictimai-iqtisadi, siyasi, mədəni, dini-ideoloji həyatını hərtərəfli təhlil etmiş, bir çox mürəkkəb tarix məsələlərini ətraflı şəkildə araşdırmışdır. Bu əsər alban, erməni, gürcü, Bizans, ərəb, siryani mənbələri əsasında yazılmışdır.[13] Əsərdə tədqiq olunmuş son tarixi hadisə hicri 317-ci (m.929/930-cu) illə əlaqədardır.[14] Həmin əsərdə Azərbaycan xalqının Xilafətə qarşı azadlıq mübarizəsinə xüsusi yer verilmiş, Babəkin başçılığı ilə Xürrəmilər hərəkatı tədqiq edilmişdir.

Təqdim olunan dissertasiya işində alimin mənbəşünaslıq sahəsindəki fəaliyyətinə xüsusi diqqət yetirilir. 1964-cü ildə Z.Bünyadov "Azərbaycan tarixi üzrə qaynaqların xülasəsi. Ərəb qaynaqları" adlı əsərini rusca nəşr etdirmişdi.[15] O, həmin əsərdə 70-ə yaxın ərəbdilli qaynağa şərhlər verməklə hər mənbənin Azərbaycan tarixinin öyrənilməsində yerini müəyyənləşdirmişdir. Alimin həmin qaynaqlardan Babəkə və xürrəmilərə aid olan bir çox tərcümələri onun "Azərbaycan VII-IX əsrlərdə" adlı monoqrafiyasında da öz əksini tapmışdır.

---

[13] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr, – 1989, – s.7

[14] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr, – 1989, – s.212.

[15] Буниятов, З.М. Обзор источников по истории Азербайджана / З.М.Буниятов. – Баку: Издательство Академии наук Азербайджанской ССР, – 1964, – 36 с.

Azərbaycan tarixinin öyrənilməsində alban xristian qaynaqları xüsusi yer tutur. Mxitar Qoşun "Alban salnaməsi" əsəri Z.M.Bünyadovun təşəbbüsü ilə nəşr olunmuş, Musa Kalankaytuklunun "Alban tarixi" əsərinin bizə məlum olmayan səhifələrini də Z.M.Bünyadov aşkar etmişdir.[16]

1978-ci ildə Z.M.Bünyadovun "Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər)" adlı monoqrafiyası nəşr olundu. O, bu əsəri yazıb nəşr etdirməklə həmin dövlətin bölgənin təkamül tarixində, ictimai-siyasi, iqtisadi, mədəni həyatında rolunu və əhəmiyyətini müəyyənləşdirdi. Onun fikrincə, Azərbaycan xalqı məhz həmin dövrdə ictimai, mədəni həyatının "qızıl əsrini", İntibah mərhələsini yaşamışdır.[17] Alim bu əsərini də müxtəlif dillərdə yazılmış bir çox qaynaqlar əsasında yazmışdır. Həmin əsərində o, bizə Eldənizlər dövləti tarixinin zəif işıqlandırılmış cəhətlərini təqdim etmişdir. Alim Vətən tarix elmini bu dövlətə həsr etdiyi məqalələri ilə yazılı qaynaqlardakı mühüm məlumatlarla zənginləşdirmiş, ilk dəfə olaraq bu dövlətin tarixini xronoloji ardıcıllıqla işıqlandırmışdır. Onun çoxillik, gərgin əməyinin məhsulu olan bu sanballı monoqrafiyada Səlcuqilər imperiyası dövründə Azərbaycanın iqtisadi, ictimai və mədəni həyatı araşdırılmışdır. Əsərdə XII əsrin ikinci yarısında-XIII əsrin birinci rübündə Azərbaycan Atabəyləri dövlətinin Orta Şərq xalqlarının həyatında oynadığı mühüm rol da göstərilmişdir. Müəllif həmin dövrdə Qafqazda siyasi şəraiti əks etdirən bir çox qiymətli mənbələri və materialları məhz bu monoqrafiyası vasitəsilə ilk dəfə olaraq elmi dövriyyəyə daxil etmişdir.[18]

Onun tədqiqata cəlb etdiyi yazılı qaynaqlar həm Azərbaycan, həm də bütövlükdə Cənubi Qafqaz, Ön Asiya, Orta (Mərkəzi) Asiya xalqları tarixinin öyrənilməsi işinə də böyük töhfədir. Z.M.Bünyadov yuxarıda qeyd olunan monoqrafiyanın nəşri və yazılı qaynaqların işıq üzü görməsi sayəsində 1986-cı ildə "Xarəzmşahlar-Ənuştəginilər dövləti" əsərini nəşr etdirdi. Z.Bünyadov həmin monoqrafiyalarında

---

[16] Qoş, Mxitar. Alban xronikası // – Bakı: AzSSP EA-nın xəbərləri. İctimai elmlər seriyası. – 1960. №3, – 268 s.

[17] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985, – s. 221-226.

[18] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985, – s. 11.

ilkin yazılı qaynaq məlumatları əsasında XIII əsrin əvvəllərinədək bölgənin feodalları arasında baş vermiş gərgin mübarizə tarixini təqdim etmişdir. 1978-ci ildə alimin rus dilində nəşr olunmuş "Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər)" monoqrafiyası 1980-ci ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görüldü. Onun bu əsərini dəyərləndirmiş Ulu Öndər H.Ə.Əliyev (1923-2003) demişdir: "Mərhum akademik Z.M.Bünyadovun əsəri Azərbaycan tarixində yazılmış ən qiymətli əsərlərdən biridir".[19] Z.Bünyadovun Xarəzm tarixini və mədəniyyətini tədqiqi, Aral dənizinin ekoloji problemlərinin həlli istiqamətindəki fəaliyyəti Özbəkistan SSR rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmiş və o, Urgənc şəhərinin fəxri vətəndaşı seçilmişdi.[20]

Z.M.Bünyadov 1965-ci ildə rusca nəşr edilmiş və 1989-cu ildə Azərbaycan dilinə tərcümə olunmuş "Azərbaycan VII-IX əsrlərdə" monoqrafiyasında orta əsr qaynaqlarını tədqiq edərək alban etnosunun qriqorianlaşaraq erməniləşməsinin səbəblərini araşdırmış, erməni tarixçilərinin məqsədyönlü şəkildə alban yazılı qaynaqlarını təhrif və məhv etdiklərini, Azərbaycan tarixini saxtalaşdırdıqlarını göstərmiş, onlara elmi əsaslarla layiqli cavab vermişdir. Z.Bünyadov 1987-ci ildən isə erməni "tədqiqatçılarını" və onların havadarlarını ifşa etməyə başlamışdı.

Z.M.Bünyadovun elmi fəaliyyətini qiymətləndirərkən qeyd etmək olar ki, alimin Azərbaycan tarix elmində yaratdığı məktəb yaşayır, bir çox tədqiqatçılar onun ərəbdilli qaynaqlardan etdiyi tərcümələrdən hələ uzun müddət istifadə edəcəklər. Z.Bünyadovun elmi fəaliyyətini onun öz sözləri ilə də dəyərləndirmək olar: "Bu günkü təfəkkür gücü dünənkindən alır. Arzu edirəm ki, çoxillik əməyimin nəticələrindən yalnız tarixçilər yox, başqa sahələrin adamları da bəhrələnsinlər, keçmişlə bu günün qəlbləri, təfəkkürləri və ruhları arasında qırılmaz əlaqələri təmin etsinlər"[21]. Təqdim olunan dissertasiya işi alimin arzularının gerçəkləşməsinə xidmət edir.

---

[19] Naxçıvan sancağının müfəssəl dəftəri. 9 məhərrəm 1140 (27 avqust 1727): / Giriş və tərcümə akademik Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). – Bakı: Sabah, – 1997, – s. 48-49.

[20] Bax: Ölümdən güclü. Tahirə Bünyadova. Ziya mənim taleyimdir. Ziya Bünyadov müasirlərinin xatirələrində. – Bakı: Elm, – 2002. – 240 s.

[21] Bünyadov Z.M. Biblioqrafiya. – Bakı: Nurlan, – 2004, – s. 5.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti akademik Z.Bünyadovun 1959-1997-ci illər ərzində elmi yaradıcılığı, predmeti isə Azərbaycanın orta əsrlər tarixi, tarixi-coğrafiya, mənbəşünaslıq, tarixşünaslıq məsələlərinin bu gün də aktual problemlərə münasibətidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əhəmiyyəti mövzunun tədqiqat obyekti ilə müəyyənləşir. Dissertantın əsas məqsədi Z.M.Bünyadovun zəngin elmi irsinin, Azərbaycanın orta əsrlər tarixini əhatə edən hissəsini araşdırmaq, alimin Azərbaycan tarix elminə, şərqşünaslığına gətirdiyi elmi yenilikləri və bir çox digər elmi məsələləri kompleks şəkildə dəyərləndirmək, tədqiq etməkdir. Dissertant bu məqsədinə nail olmaq üçün qarşısına aşağıdakı mühüm vəzifələrin yerinə yetirilməsinə cəhd göstərmişdir:

- Azərbaycan tarix elmində Z.M.Bünyadova qədər xalqımızın orta əsrlər tarixinin öyrənilməsi ilə bağlı olan problemlərin qoyuluşunu araşdırmaq;
- Z.M.Bünyadovun tədqiqat obyektlərinin əsas mənbəşünaslıq bazasını müəyyənləşdirmək;
- tarixi proseslərə obyektiv və elmi yanaşma əsasında Z.Bünyadovun orta əsr Albaniyası ilə bağlı olan bir çox məsələlərə, o cümlədən Sasanilər dövründə Albaniya dövlətinin sərhədlərinə, ölkənin ictimai-siyasi quruluşuna, dini-ideoloji və etnik mənzərəsinə dair Vətən tarix elminə gətirdiyi yenilikləri müəyyən etmək;
- tədqiq olunan dövrün yazılı qaynaqları əsasında ərəb işğallarının gedişi, ərəb-xəzər münasibətləri, bu şəraitdə Albaniyanın siyasi mövqeyi və erməni qriqoryan kilsəsinin Mehrani sülaləsinin hakimiyyətinin ləğvində rolu, Xilafət dövründə Azərbaycanın ictimai-iqtisadi inkişafı məsələlərinə alimin münasibətini araşdırmaq, bu yanaşma tərzinə konkret münasibət bildirmək, bununla yanaşı Vətən və dünya tarix elmində alimin irsinə dair qərəzli fikirləri üzə çıxarmaq;
- Alimin Ərəb Xilafətinin dağılmasına səbəb olmuş dini-siyasi, ideoloji səciyyəli qiyamların, üsyanların, Azərbaycanda ilk feodal dövlətlərinin yaranma səbəblərinə münasibətini işıqlandırmaq, həmin münasibətin obyektivliyini ən yeni araşdırmalarla təsdiqləmək;
- Z.Bünyadovun XII-XIII əsrlərdə Azərbaycanda qərarlaşmış siyasi, ictimai münasibətlərə, Atabəylər dövlətinə və onun Azərbaycan dövlətçilik tarixində yerinə, dövrün dövlətlərarası münasibətlərinə, tarixi coğrafiya məsələlərinə aid olan elmi fikir və nəticələrini

araşdırmaq, alimin bu sahədəki tədqiqatlarının əsas istiqamətlərini göstərmək;

- şərqşünas, tarixçi Z.Bünyadovun mənbəşünaslıq sahəsində gördüyü işləri araşdıraraq, onun həmin qaynaqlara, tərcümələrə münasibətini, bu mənbələrin Azərbaycan tarixinin işıqlandırılmasında yerini müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqat işinin metodoloji əsasını tarixi tədqiqat metodu təşkil edir. Tədqiqata cəlb edilmiş bütün mənbələr və məlumatlar tənqidi yanaşma əsasında sistemləşdirilmiş, problem müxtəlif tədqiqat əsərlərində, qaynaqlarda öz əksini tapmış materialların, faktların müqayisəsi əsasında araşdırılmış, fakt və hadisələr ümumiləşdirilmiş, onların hərtərəfli şərhinə cəhd edilmişdir. Tədqiqat gedişində tarixiliyə, tarixi hadisələrə elmi yanaşma tərzinə, müqayisəli təhlilə üstünlük verilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Z.Bünyadov Azərbaycanın erkən orta əsrlər tarixinin fundamental tədqiqatçısıdır və onun əsərlərində tarixşünaslığımız üçün müəyyən olunan istiqamətlər bu gün də öz aktuallığını qorumaqdadır;
- Erkən orta əsrlər Albaniyasının alim tərəfindən müəyyən olunmuş sərhədləri elmi səviyyədə Azərbaycanın tarixi torpaqlarına olan erməni iddialarının qarşısını almışdır;
- Ərəb işğallarının gedişi, mexanizmi Z.M.Bünyadov tərəfindən sistemli tədqiq edilmiş, ərəb-xəzər-alban münasibətləri qənaətbəxş şəkildə araşdırılmışdır, bu zaman alim Azərbaycan dövlətçiliyi baxımından tarixə yanaşmışdır;
- Alimin Xürrəmilər hərəkatının ideologiyası, İslamlaşma və etnogenez məsələlərində elmi nəticələri bu günkü tarixşünaslığımızla ziddiyyətli məqamlara malikdir;
- Z.M.Bünyadov Azərbaycanın III-XI əsrlər tarixində sosial-iqtisadi məsələləri mənbələr əsasında izləmiş onun elmi izahını vermişdir;
- O, Alban mənşəli feodalların erməni olmadığını sübut etməklə Azərbaycanın tarixi irsini qəsb etməyə çalışan erməni bədxahların qarşısını elmi səviyyədə almışdır;
- IX-XIII əsrlər Azərbaycan dövlətçiliyi, sülalələrin mənşəyi və fəaliyyəti Z.M.Bünyadov tərəfindən geniş işıqlandırılmış, erməni və gürcü tarıxçilərinin əsassız iddialarına cavab verilmişdir;

- Səlcuq işğalları və Azərbaycan Atabəyləri dövləti haqda alimin fundamental tədqiqatı xalqımızın dövlətçilik tarixinə mühüm töhfəsidir;

- Z.Bünyadov tariximizin III-XVIII əsrlər dövrünə aid mənbələri tərcümə etməklə Azərbaycan mənbəşünaslığını zənginləşdirmişdir.

**Tədqiqat işinin elmi yeniliyi.** Dissertasiya Vətən tarix elmində alimin Azərbaycan xalqının orta əsrlər tarixini işıqlandıran tədqiqat əsərlərinin, qaynaqlarda öz əksini tapmış məlumatların kompleks tədqiqinə həsr edilmiş ilk elmi-araşdırma işidir. Dissertasiya işində Z.Bünyadovun Azərbaycan tarix elminə, şərqşünaslığına gətirdiyi elmi yeniliklərin, bu yeniliklərin tarix elminin inkişafında rolunun müəyyənləşdirilməsinə cəhd edilmişdir. Dissertasiyanın elmi yeniliyini şərtləndirən digər cəhətlər isə aşağıdakılardır:

- Əsərdə erkən orta əsrlər tarixinə, xüsusilə antik və erkən orta əsr Azərbaycan Albaniyasının əsas inkişaf istiqamətlərinə, erməni və sovet tarixçilərinin bu sahədə yaratdıqları problemlərə, yanlışlıqlara Z.Bünyadovun münasibətini qiymətləndirməyə cəhd göstərilmişdir;

- dissertasiyada alimin ərəb işğalları ərəfəsində və ərəb hakimiyyəti dövründə Azərbaycanda baş vermiş ictimai-siyasi proseslərə və hadisələrə, dinin mövqeyinə və roluna, xalqın təşəkkülündə aparıcı rol oynamış amillərin araşdırılmasına münasibətinin kompleks şəkildə öyrənilməsinə səy göstərilmişdir;

- tədqiqat işində alimin "Azərbaycan VII-IX əsrlərdə" adlı monoqrafiyasının Vətən və dünya tarix elmində tutduğu yer həmin əsər haqqında bu vaxtadək yazılmış tənqidi (o cümlədən qərəzli) rəylər əsasında müəyyənləşdirilir;

- dissertasiyada Z.Bünyadovun Azərbaycan ərazisində baş vermiş dini-siyasi üsyanlara, o cümlədən Ərəb Xilafətinin zəifləməsinə təkan vermiş Xürrəmilər hərəkatınına dair fikirləri əsas götürülərək, müxtəlif alimlərin akademikin sağlığında və sonra həmin hərəkatın ideologiyasına dair müddəaları, bu hərəkat nəticəsində Azərbaycanda feodal dövlətlərinin meydana gəlməsinə, tarix elmində bu dövlətlərin yaranmasına dair mülahizələri təhlil olunmuşdur;

- Z.Bünyadovun Azərbaycan Atabəyləri dövlətinin siyasi quruluşuna, siyasi tarixinə, dövrün beynəlxalq münasibətlərində tutduğu mövqeyinə dair müddəaları ətraflı təhlil edilmişdir;

- Z.M.Bünyadovun elmi yaradıcılığının mühüm hissəsini təşkil edən orta əsr şərq qaynaqlarının tərcüməsinin və şərhinin Vətən tarix elmində xüsusi qiyməti, tarix elmi üçün əhəmiyyəti qeyd olunmaqla yanaşı ilk dəfə olaraq bu irsin kompleks şəkildə təhlilinə səy göstərilmişdir.

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat gedişində əldə olunmuş materiallardan, elmi nəticələrdən Azərbaycan xalqının III-XVIII əsrlər tarixinin bir çox məsələlərinin öyrənilməsində, Azərbaycan tarixi üzrə ümumiləşdirilmiş əsərlərin yazılmasında və nəşrində, təhsil, təlim-tərbiyə və tarixi təbliğat prosesində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işi AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın başlıca müddəaları öz əksini müəllifin nəşr olunmuş 9 məqaləsində, üç beynəlxalq konfransda etdiyi elmi məruzələrində tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmiş və adı çəkilən şöbənin genişləndirilmiş iclasında dəvət olunmuş mütəxəssislərin iştirakı ilə müzakirə olunaraq, müdafiəyə buraxılması tövsiyə edilmişdir.

**Dissertasiyanın struktur bölmləri daxil olmaqla ümumi həcmi.** Dissertasiyanın ümumi həcmi (ədəbiyyat siyahısı istisna olunmaqla) 287960 işarədir. Giriş – 22953 işarədən, I fəsil – 98422 işarədən, II fəsil – 101786 işarədən, III fəsil – 47619 işarədən və nəticə 17180 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "**Giriş**" hissəsində tədqiq olunan mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın işlənmə dərəcəsi şərh edilmiş, dissertasiyanın məqsəd və vəzifələri nəzərə çatdırılmış, tədqiqatın nəzəri və metodoloji əsasları, elmi yeniliyi və elmi-praktik əhəmiyyəti şərh edilmişdir.

Dissertasiya işinin birinci fəsli **"Z.M.Bünyadov Azərbaycan xalqının erkən orta əsrlər tarixinin tədqiqatçısı kimi"** adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir. **"Azərbaycan xalqının Ərəb işğal-**

**larına qədərki tarixi"** adlanan birinci yarımfəsildə Z.Bünyadovun "Azərbaycan VII-IX əsrlər"də monoqrqfiyasında Azərbaycanın III-VII əsrlər tarixinin problemləri sırasında diqqət yetirdiyi siyasi, etno-konfessional tarix və "erməni tarixçiləri"nin saxta ərazi iddialarına verilən cavablar, tarixi coğrafiya məsələləri təhlil edilmiş, tədqiqatın əhəmiyyəti nəzərə çatdırılmışdır. Burada monoqrafiyaya müxtəlif alimlərin müsbət rəyləri,[22] əsərə qarşı "erməni və ermənipərəst alim" lərin qaralama kompaniyasının nümunələri barədə müfəssəl məlumat verilir.[23]

---

[22] Бейлис, В.М. Целеустремленный и плодотворный труд (Зия Мусаевич как источниковед и историк) // Ölümdən güclü. – Bakı: Elm, – 2002, – s.240; Беляев, Е.А. Отзыв о работе З.М.Буниятова «Азербайджан в VII-IX вв.», представляемой в качестве диссертации на соискание ученой степени доктора исторических наук // http://ziyabunyadov.com/ru/otvet/ ; Буниятова, Т. Зия – моя судьба // Сильнее смерти. Зия Буниятов в воспоминаниях современников. – Баку: Elm, – 2002, с.41; Велиханлы, Н.М. Зия Муса оглы Буниятов – выдающийся ученый Азербайджана // https://yadi.sk/i/KtZIFxtiiTpGv; Грязневич, П.А. Отзыв о работе З.М.Буниятова «Азербайджан в VII-IX вв.» // https://yadi.sk/i/kc94_QohiTWEJ; Буниятов, З.М. Размышления по поводу книги А.Н.Тер-Гевондяна «Армения и Арабский халифат» (Ереван: 1977, 319 с.) // – Баку: Известия Академии наук Азербайджанской ССР. Серия истории, философии и права. – 1977. – №4, – с. 115-116; Мамедова, Ф.Дж. Он был светочем истинного мира // – Bakı: Azərbaycan şərqşünaslığı. – 2012. №2 (8), – s. 22-23 ; Brands, H.W. Azerbaidshan im VII-IX Jh. // ZQDM.– Frankfurt a. M.: – Bd 119, – 1968, – pp. 198-199.

[23] К освещению проблем истории и культуры Кавказской Албании и восточных провинций Армении // http://armenianhouse.org/caucasian-albania; Мнацаканян, А.Ш., Севак П.С. По поводу книги З. Буниятова «Азербайджан в VII IX вв.» // К освещению проблем истории и культуры Кавказской Албании и восточных провинций Армении / Составитель П.М.Мурадян. – Ереван: Изд-во Ереванского университета, – 1991, – с. 296-310; Мелик-Огаджанян, К.А. Историко-литературная концепция З.Буниятова // Ереван: Вестник архивов Армении, – 1968. №2, – с.169-189; Hewsen, Robert H. Ethno-History and Armenian influense upon the Caucasian Albanians // Classical Armenian Culture. Influense and Creativity / by Th.Samuelian. – 1982. №4, – p. 27-40; Буниятов, З.М Ответ моим критикам и оппонентам // https://www.ziyabunyadov.com/blank-c1iqa; Бабаян, Л.О. Социально-экономическая и политическая история Армении XIII-XIV вв. / Л.О.Бабаян. – Москва: Наука, – 1969. – 336 с.; Алекперов, А.Ф Еще раз об этносе-разрушителе или о чем звенит колокольчик В.А.Шнирельмана (рецензия на книгу В.А.Шнирельмана «Войны памяти. Мифы идентичность и политика в Закавказье. Москва: 2003)» // – Баку: «Азербайджан и азербайджанцы». – 2010. №1-2. Vol. 105-106, – с.48-63.

Erkən orta əsrlər Albaniyasının sərhədlərinin müəyyənləşdirilməsi çox mühüm məsələ idi.

Dövrün ilkin qaynaqlarına əsaslanmış Z.Bünyadov ilk dəfə olaraq alban xristianlıq tarixini, Alban kilsəsinin quruluşunu, alban ədəbiyyatını araşdırmışdır. O, erməni tədqiqatçılarına[24] cavabında yazmışdı: "İstər yazılı mənbələr, istərsə də arxeoloji qazıntı materialları göstərir ki, V əsrin əvvəlində Azərbaycanın şimal hissəsinin (Arranın) öz əlifbası olmuşdur. Mingəçevirdəki qazıntı zamanı tapılmış alban əlifbası parçası təsdiq edir ki, VII-VIII əsrlərdə Arranın öz, yerli yazısı var idi və bu yazı ölkədə ərəb hökmranlığı qurulmazdan daha əvvəl mövcud olmuşdur.[25]Alim xəzərlərin yürüşləri, onların Azərbaycanda hakimiyyət illəri, Sasani-Bizans münasibətləri təfsilatı ilə təhlil etmiş, alban patriarxı Vironun siyasi fəaliyyəti düzgün dəyərləndirmişdir.[26]

Z.Bünyadovun tədqiqatlarında ərəblərin Azərbaycana yürüşləri, işğal prosesi, bu dövrdə yaranmış ictimai münasibətlər, şəhərlər, yeni vergi sistemi, köçürmə siyasəti, qriqorianlaşdırmanın nəticələri, xalq hərəkatları və ideologiya haqqında məlumatlar **"Azərbaycan Ərəb Xilafətinin tərkibində" adlanan ikinci yarımfəsildə** şərh edilir. Alim Sasani-Ərəb müharibəsinin döyüşlərinin vaxtlarını dəqiqləşdirmiş, Cavanşir başda olmaqla albanların bu müharibədə iştirakını işıqlandırmışdır.[27]

Z.M.Bünyadovun monoqrafiyalarında Azərbaycan ərazisində və qonşuluqda yerləşən şəhərlər, keçidlər və ticarət yolları arasındakı məsafələr dəqiqliklə göstərilmişdir.[28] Burada Sasanilər və Ərəb Xilafəti dövründə Azərbaycan ərazisində tədavüldə olmuş pullarla bağlı məlumat vardır.[29]

---

[24] Еремян, С.Т. Идеология и культура Албании в III-VII вв. // Очерки истории СССР. III-IX вв. – Москва: Изд-во Академии наук СССР, – 1958, – с. 237.

[25] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989, 336 s., s.58.

[26] Мамедова, Ф.Дж. Кавказская Албания и албаны / Ф.Дж.Мамедова. – Баку: Центр Исследований Кавказской Албании, – 2005. 161.

[27] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr, – 1989, – s. 72-73, 80, 117.

[28] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr, – 1989, – s.141-162.

[29] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr,

Z.M.Bünyadov Cavanşirin VII əsrin 50-60-cı illərində Bizans imperiyası və Xəzər xaqanlığı ilə münasibətlərini də təhlil etmişdir.[30] Ərəblər Albaniyanın Bizansla quru əlaqələrini kəsdikdən sonra Cavanşir Bizans imperatoru ilə vassal münasibətlərinə son qoydu.[31] O, 667-ci ildə Şam (Dəməşq) şəhərində xəlifə Müaviyyə ilə görüşdü. Alim yazırdı ki,"667-ci il onun Dəməşqə ilk, yeganə səfəri idi".[32]

Cavanşirin ölümünü bəhanə, ərəblərin zəifliyindən istifadə edən xəzərlər 685-ci ildə Albaniyaya daxil oldular. Varaz-Trdat öz hakimiyyətini üç qüdrətli dövlət arasında manevrlər etməklə saxlaya bilmədi. 705-ci ildə Albaniyada işxan hakimiyyəti ləğv edildi və Albaniya artıq "Arran" adı ilə ərəb Xilafətinin tərkibinə qatıldı.

Monoqrafiyada ərəblər zamanında Azərbaycandakı sosial vəziyyət, torpaq və vergi siyasətinə də toxunulmuşdur.[33]

Z.Bünyadov ərəb Xilafətinin Azərbaycanda inzibati idarəçiliyi məsələləri ilə də maraqlanmışdır. Azərbaycan Arran, "Ərməniyyə", Əlcəzirə və Kiçik Asiya ilə birlikdə üçüncü canişinliyə daxil edildi. Azərbaycanın sərhədləri Dərbənddən Zəncana qədər uzanırdı. Bu tarixi-inzibati vahidin XX əsrin 18-ci ilində yaranmış "Ermənistanla" heç bir bağlılığı yoxdur.

Z.M.Bünyadovun ilk monoqrafiyasında etnogenez məsələlərinə də toxunulmuşdur.

Z.M.Bünyadov Pavlikianlar hərəkatını Azərbaycan tarix elminə yeni tədqiqat problemi kimi daxil etdi. Bu hərəkat Albaniyada meydana gəlmiş, buradan isə "Ərməniyyə" ərazisinə və Bizans imperiyasına yayılmışdı. Pavlikianların adı 706/707-ci illərdə və 768-cı ildə Partav (Bərdə) kilsə qətnamələrində çəkilir. Z.M.Bünyadova görə "balasakanlılar və yaxud beyləqanlılar pavlikian ola bilərdilər".[34]

---

– 1989, – s. 147-149.

[30] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr, – 1989, – s. 75-76.

[31] Vəlixanlı, N.M. Ərəb Xilafəti və Azərbaycan / N.M.Vəlixanlı. – Bakı: Azərbaycan Dövlət nəşriyyatı, – 1993, – s.30.

[32] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr, – 1989, – s.77

[33] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr, – 1989, – s. 83-84, s. 113-114, s. 126, s. 129.

[34] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr,

Əsərdə Xürrəmilər hərəkatı və Babək də öz əksini tapmışdır. Alim sovet tarix elmində ilk dəfə olaraq Babəkin rəhbərlik etdiyi Xürrəmilər hərəkatını tədqiq edərkən "xürrəm" anlayışı haqqında bütün məlumatları toplayaraq sistemləşdirmişdir.[35] N.M.Vəlixanlı Z.M.Bünyadovun "Xürrəm" sözü ilə bağlı olan fikirlərini davam etdirərək yazmışdır ki, "xürrəm" sözünü başlanğıc kimi fars "xur, xvar-od, günəş" anlayışından deyil, "xvarena", "xürrə" (ərəbcə "bərəkə", yəni "ilahi nemət") anlayışından yaranmışdır.[36] Son dövrdə "Babəkin müsəlman olduğunu" haqqında faktlar da səsləndirilir.[37]

Z.M.Bünyadov görə Bəzz qalası Varsanın qərbində və müasir Ordubadın şərqində, bu iki məntəqənin arasındakı bir yerdə, şimaldan Araz çayı, şərqdən Qarasu çayı, cənubdan Əhərlə, qərbdən Hacılarçayı ilə əhatə olunmuş ərazidə, yəni dağ vilayəti olan Qaradağda olmuşdur.[38]

Dissertasiya işinin ikinci fəsli **"Azərbaycan xalqının orta əsr dövlətçiliyinin tarixi Z.M.Bünyadovun elmi yaradıcılığında"** adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir. **"Azərbaycanın dövlətçilik tarixində IX-XI əsr feodal dövlətlərinin yeri və rolu"** adlanan birinci yarımfəsildə Alban mənşəli feodalların erməni olmadığının Z.M.Bünyadov sovet tarix elmində sübut etməsinin əhəmiyyəti nəzərə çatdırılmış, Ərəb Xilafətinin dağıldığı dövrdə Azərbaycanda Şirvanşahlar və Sacilər dövlətinin əsasını qoymuş Məzyədilər və Sacilər sülalələrinin mənşəyi, onların fəaliyyəti, ərəblərin köçürmə siyasəti, sanarlar və səqləblər ilə bağlı alimin tədqiqatları təhlil edilmişdir.

---

– 1989, – s. 213,216,218.

[35] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr, – 1989, – s. 218-257.

[36] Vəlixanlı, N.M. Bir daha xürrəmilər, xürrəmdinlər, babəkilər və onların ideya sələfləri və xələfləri haqqında // – Bakı: Azərbaycan Elmlər Akademiyasının xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. – 1997, №1-4, – s. 93-94.

[37] Bayramlı, C.M. Babək və hürrəmilik (yalanlar və gerçəklər) / C.M.Bayramlı. – Bakı: Kitab aləmi, – 2011, – s. 23.

[38] Bax: Буниятов, З.М. О местонахождении средневековых городов-крепостей Базз и Шаки // – Москва: Краткие сообщения Института народов Азии (АН СССР). – Выпуск. 47. – Арабские страны. – 1961, – с. 89-93.

Xilafətin dağılması zamanı Azərbaycan ərazisində yaranmış dövlətlərdən biri də Şirvanşahlar (Məzyədilər) dövləti idi. Bu problemin öyrənilməsində Z.Bünyadovun xidmətləri xüsusilə mühümdür. O, qeyd etmişdir ki, Şirvanın birinci rəsmi məliki eyni zamanda "Azərbaycan, Ərməniyyə, Arran və Dərbənd" hakimi olmuş Rəbiə tayfasına mənsub Yəzid ibn Məzyəd əş-Şeybani idi. 851-ci ildə xəlifə Mütəvəkkil Bab əl-Əbvabı (Dərbəndi) iqta olaraq Məhəmməd ibn Xalidə vermişdi. Məhəmməd ibn Xalid təxminən 856-cı ildə Buğa əl-Kəbirin köməyi sayəsində Azərbaycan, "Ərməniyyə" və Arranda Xilafətin son valisi təyin oldu. 861-ci ildə Heysəm ibn Xalid qardaşı Mütəvəkkilin ölümündən və Bağdadda başlanmış iğtişaşlardan istifadə edərək Şirvanın "müstəqilliyini" elan etdi.[39]

Z.M.Bünyadov Sacilər dövləti ilə məşğul olan tədqiqatçıların əsərlərini öyrənərək qeyd etmişdi ki, "onların müəllifləri bu sülalənin tarixini işıqlandıran əsas qaynaqlarla tanış deyildilər". Alim qeyd edirdi ki, "həmin tarixi şəxsiyyət (Əəs-s-Sac Divdad – E.Q.) Usruşananın dağlıq Cankakat kəndindən olmuş "adlı-sanlı türk sərkərdələrindən idi və eyniadlı sülalənin banisidir".[40]

892-cu ildə Bağdadda iğtişaşları yatırdıqdan sonra xəlifə əl-Mütədid Məhəmməd ibn Əbu Sacı yenidən Azərbaycanın, "Ərməniyyə"nin və digər dağlıq ölkələrin canişini təyin etmişdi. 898-ci ildə Məhəmmədin hakimiyyəti dövründə onun adına sikkə kəsilmişdi. Yusifin hakimiyyəti dövründə Arran, Şəki və Şirvan Sacilər dövlətinə birləşdirildi. Yusifin hakimiyyəti illərində Azərbaycan torpaqları ilk dəfə olaraq vahid dövlət tərkibində birləşdirildi. Artıq 915-ci ilə doğru Sacilər dövləti tərkibində Azərbaycan ərazisi "qərbdə Ani və Dvin şəhərlərinədək, şərqdə Xəzər dənizinədək, cənubda Zəncana, şimalda isə Dərbəndə qədər uzanmışdı.[41] Yusif ibn Əbu-s-Sac Dər-

---

[39] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr, – 1989, – s. 195.

[40] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr, – 1989, – s. 196.

[41] Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr, – 1989, – s. 200-201, s. 205; Ağayev, R.Ə. Ərəb xilafəti dövründə "Azərbaycan" tarixi-coğrafi anlayışı və onun hüdudları // – Bakı: Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları. 2 hissədə. 1

bənd qalasının bərpası ilə Xəzər xaqanlığına hücum etməyə, onların Azərbaycana təsirini azaltmağa can atırdı.[42] Alim Sacilər dövlətinin tarixini işıqlandırarkən səthi şəkildə rusların Xəzər dənizi sahillərinə və Azərbaycana basqınlarına nəzər yetirmişdir.

**"Azərbaycan Atabəyləri dövləti dövlətçilik tarixinin mühüm mərhələsi kimi"** adlanan ikinci yarımfəsildə müəllifin həmin dövlətin tarixinə həsr olunmuş monaqrafiyasınınmonoqrafiyasının yazılma zərurəti, əsərdə işıqlandırılan məsələləri nəzərdən keçirilir. Burada Azərbaycanın Səlcuq işğalı, Böyük Səlcuq imperiyasının (1055-1157) son dönəmində İraq Səlcuq dövlətində baş verən hərbi-siyasi hadisələr, Şəmsəddin Eldənizin müstəqil hökmdar olması, onun daxili və xarici siyasəti ilə bağlı Z.Bünyadovun araşdırması təhlil edilmişdir. Monoqrafiyada əks olunmuş Arslan şah (1160-1176)-Məhəmməd Cahan Pəhləvan, Abbasi xəlifəsi – III Toğrul – Qızıl Arslan, Əbubəkr – III Toğrul – Qutluq İnanc – Xarəzmşah Təkəş münasibətləri təhlil edilmişdir. Atabəylər dövlətinin quruluşu, sosial-iqtisadi məsələlərin öyrənilməsi də bu yarımfəsildə nəzərdən keçirilmişdir. Z.Bünyadovun əsərdə Atabəy Şirvanşah münasibətləri, Şirvanşahların genealogiyası və onların mədəni quruculuq işləri barədə yazdıqları da bu yarımfəsildə analiz edilmişdir.XII-XIII əsrlərdə Azərbaycanda Eldənizlər sülaləsinin hakimiyyətə gəlməsi həmin proseslərin nəticələrindən biri idi. Azərbaycan Atabəyləri bu proseslərdə aparıcı rol oynayırdılar.[43] Z.M. Bünyadov qeyd etmişdir ki, 1136-cı ildə sultan Məsud Arranı Eldənizə iqta vermiş və bundan sonra o, tədricən bütün Azərbaycana yiyələnmişdi. 1160-cı ilin noyabrda Eldəniz 20 minlik qoşunu ilə Arslan şahla birlikdə Həmədana gəldi. Təntənəli mərasimdə Arslanşahın başına tac qoydular. Şəmsəddin Eldəniz həmin gündən "Böyük atabəy", onun böyük oğlu Məhəmməd Cahan Pəhləvan sultanın əmir-hacibi, ikinci oğlu Qızıl Arslan isə sultan ordusunun ali baş komandanı təyin

---

hissə. 5-7-may 2015-ci il. – Bakı: Azərbaycan, – s.50.

[42] Алекперов, А.Ф. По поводу происхождения некоторых названий // – Bakı: Türkologiya, – 2011. 4 c. s.62-63.

[43] Bax: Топуриа, П.А. З.М.Буниятов. Государство атабеков Азербайджана (1136-1125). Баку: Элм, 1978 // – Москва: Народы Азии и Африки. – 1982, №5, – с.189-192.

edildi.[44] Şəmsəddin Eldəniz İraq Səlcuq sultanlığının həqiqi başçısı idi.[45] Z.Bünyadov "atabəy" təsisatı ilə bağlı olaraq R.Ə.Hüseynovla elmi mübahisə aparmış, həmin təsisatın Eldəniz dövründəki mahiyyətini açıqlamışdır.[46] Şəmsəddin Eldənizin hakimiyyəti dövründə dövlətin ərazisi Tiflisdən Məkranadək uzanırdı. Z.Bünyadov mənbə məlumatları əsasında Naxçıvan, Ani, Dəbil və Hilat şəhərlərinin Azərbaycan sərhədləri daxilində olduğunu yazmışdır.[47]

Z.Bünyadov Azərbaycan Atabəyləri dövlətinin inzibati, hərbi, maliyyə, məhkəmə, idarəçilik və bürokratik aparatını, onun etnik tərkibini, əyalətlərini torpaq mülkiyyəti formalarını qaynaqlar əsasında izləmişdir. Azərbaycan Atabəyləri dövlətində inzibati idarə sistemi Səlcuqlarda olduğu kimi idi. Azərbaycan Atabəylərinin sarayı (dərgahı, bargahı) Səlcuqlarda olduğu kimi ilkin köçəri həyat tərzinə uyğun surətdə təşkil olunmuşdu. Alim belə hesab edirdi ki, həm Səlcuq sultanlarında, həm də Azərbaycan Atabəyləri dövlətində paytaxtların tez-tez dəyişməsi məhz bununla izah edilməlidir.[48]

Z.Bünyadov Eldənizin xarici siyasətini "qərb" və şərq" qollarına bölürdü. Müəllif "qərb siyasəti" deyəndə Abbasilərlə və onlarla müttəfiq olmuş qüvvələrlə mübarizəni nəzərdə tuturdu. Z.Bünyadov "Şərq siyasəti" ifadəsi altında Eldənizin Xarəzmşahlarla münasibətlərini (1167, 1169-cu illər) nəzərdə tutmuşdur.[49]

---

[44] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985. – s. 44-46.

[45] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985. – s. 171-172.

[46] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985. – s. 173; Гусейнов, Р.А. Титулатура и тамга Ильдегизидов // – Баку: Советская тюркология. – 1970, №4, – с. 89; Гусейнов, Р.А. Иракские Сельджукиды, Ильдегизиды в Закавказье // Палестинский сборник, – Ленинград: Издательство «Наука» Ленинградское Отделение, – Выпуск 21. – 1970, – с. 190-193.

[47] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985. – s. 50-52.

[48] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985. – s. 176.

[49] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985. – s. 47-65; Гусейнзаде, Р.А. Сельджукская эпоха истории Кавказа / Р.А.Гусейнзаде. – Москва: Kremlin Multimedia, – 2013. – с. 90-91.

Z.Bünyadov monoqrafiyada Azərbaycan Atabəylərinin gürcü hakimləri ilə münasibətlərini də araşdırmışdır. Alimin fikrincə, gürcülər hələ monqol hücumlarınadək Eldənizlərlə münaqişədə olmuşlar 1161-1163-cü, 1166-cı, 1174-cü illər müharibələri barədə məlumatlar təhlil edilmişdir [51-53].[50]

Cahan Pəhləvan sultan taxtına III Toğrulu çıxarmış və eyni zamanda onun atabəyi olmuşdu. Məhəmməd Cahan Pəhləvan da əsas diqqətini feodal separatizminin qarşısını almağa yönəltmişdi. O, Xarəzmşah Təkəş və Abbasi xəlifəsi ilə münasibətlərini nizama sala bildi və müstəqil siyasət yeridə bildi. Məhəmməd Cahan Pəhləvan üçün xarici siyasətdə ən çətin məsələ qərb sərhədlərinin təhlükəsizliyi idi. 1186-cı ildə o burda vəfat etdi. “Məhəmməd Cahan Pəhləvanın həyata keçirdiyi tədbirlər mərkəzi hakimiyyətin möhkəmlənməsinə kömək etmədi”.[51]

Onun ölümündən sonra Qızıl Arslanın hakimiyyətə gəlməsi də monoqrafiyada ətraflı təhlil edilmişdir.[52] Qızıl Arslan gürcüləri və Həmədan qiyamçılarını ram etdikdən sonra xəlifə onun “sultan” adını rəsmiləşdirdi. O, İraq Səlcuq sultanlığının mütləq hakimi oldu. Alim onun 1191-ci ildə ismaililər tərəfindən öldürülməsini həqiqətə uyğun hesab edirdi.[53]

Z.M.Bünyadov Qızıl Arslanın ölümündən sonra hakimiyyət uğrunda Əbubəkr, Qutluq İnanc, Əmir Əmiran və III Toğrul arasındakı mübarizəni işıqlandırmışdı.[54] Z.Bünyadovun məlumatlarına əsasən monqol-türk yürüşləri ərəfəsində Azərbaycan Atabəyləri əslində xarəzmşahların vassalı idi və 1225-ci ildə Cəlaləddin Mankburnunun yürüşü feodal hüququ baxımından tam əsaslı sayılma-

---

[50] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985, – s. 51-53,

[51] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985. – s. 71-75.

[52] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985. – s. 80-82.

[53] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985. – s. 83- 87.

[54] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985. – s. 89-93.

lıdır.[55] Monqol, sonra qıpçaq və gürcü hücumlarını izləyən müəllif 1225-ci ildə Azərbaycan Atabəylər dövlətinə Cəlaləddin tərəfindən son qoyulduğunu yazır.[56]

Z.Bünyadov 1063-1226-cı illərdə Azərbaycan Atabəyləri dövlətinin Şirvanşahlarla münasibətlərindən də bəhs etmişdir.[57]

Azərbaycan dövlətləri və onların fəaliyyəti, hakim sülalələrin etnik mənşəyi ilə bağlı tarixi dəyərləndirmə, erməni və gürcü iddialarına cavablar Z.M.Bünyadovun alim kimi böyük uğuru, tariximizin həmin dövrünün ətraflı tədqiqi olmuşdur.

Dissertasiya işinin üçüncü fəsli **"Z.M.Bünyadovun Azərbaycanin erkən orta əsrlər tarixinin öyrənilməsində elmi dövriyyəyə daxil etdiyi qaynaqların əhəmiyyəti"** adlanır. Burada bir neçə Şərq və Avropa dillərini mükəmməl bilən alimin mənbəşünaslıq fəaliyyəti təhlil edilmiş, elmi dövriyyəyə daxil etdiyi qaynaqların tədqiq tarixi, onların xüsusiyyətləri, əlyazma nüsxələri müəllifləri barədə məlumatlar nəzərdən keçirilmişdir.

Albaniya tarixini tədqiq edən Z.Bünyadov Musa Kalankatuklunun "Alban tarixi"ni, Mxitar Qoşun "Qanunnamə"sini,[58] Yesai Həsən-Cəlalın "Alban ölkəsinin qısa tarixi" əsərini oxuculara təqdim etdi.[59] Alimin elmi dövriyyəyə daxil etdiyi digər əsər "Anonim erməni salnaməsi"dir.[60]

Z.M.Bünyadovun yaradıcılığında ərəbdilli qaynaqlardan olan

---

[55] Буниятов, З.М. Государство Хорезмшахов-Ануштегинидов (1097-1231 гг.) / З.М.Буниятов. – Москва: Наука, – 1986. – 248 с.

[56] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985. – s. 112-117.

[57] Bünyadov, Z.M. Azərbaycan Atabəyləri dövləti / Z.M.Bünyadov. – Bakı: Elm, – 1985. – s. 136-171.

[58] Kalankatuklu, Moisey. Albaniya tarixi; Qoş Mxitar. Alban salnaməsi / M.Kalankatuklu, M.Qoş. – Bakı: Elm, – 1993. – 272 s.; Qoş, Mxitar. Alban xronikası // – Bakı: AzSSP EA-nın xəbərləri. İctimai elmlər seriyası. – 1960. №3, – 268 s.

[59] Хасан-Джалалян, Есаи. Краткая история страны албанской (1702-1722) / Предисловие и подготовка к изданию академика З.М.Буниятова / Хасан-Джалалян Есаи. – Баку: Элм, – 1989. – 48 с.

[60] Армянская анонимная хроника 1722-1736 гг. Издание второе / Перевод с турецкого и примечания академика Азербайджанской ССР З.М.Буниятова. – Баку: Элм, – 1988. – 100 с.

tərcümələri də mühüm yer tutur. Alimin tərcüməsində 1973-cü ildə çap olunmuş, Azərbaycan tarixini əks etdirən əsas mənbələrdən biri də Şihabəddin Məhəmməd ən-Nəsəvinin Cəlaləddinin həyat yolunu işıqlandıran "Sirat əs-sultan Cəlaləddin Mankburnı" əsəridir.[61] Alimin 1980-ci ildə tərcümə etdiyi, Əl-Hüseyniyə məxsus olan "Əxbar əd-dövlət əs-Səlcuqiyyə" ("Səlcuq dövləti haqqında xəbərlər") əsəri xüsusilə dəyərlidir.[62] Alim 1981-ci ildə Əhməd ibn Əsəm əl-Kufinin "Kitab əl-Fütuh" əsərindən Cənubi Qafqaza aid olan müəyyən hissələri rus dilinə tərcümə etmişdir. Burada ərəblərin hərbi yürüşləri, ərəb köçkünləri, ərəb-xəzər müharibələri, Babək və onun həbs olunması haqqında mühüm materiallar vardır.[63] Z.M.Bünyadovun tərcümə etdiyi qaynaqlardan biri də ərəbdilli coğrafiyaçı və səyyah Yaqut ər-Rumi əl-Həməvinin "Mucəm əl-buldan" əsəridir. Alimin araşdırmaları sübut edir ki, həmin tərcümədə Azərbaycanın 25 şəhər, qala və kənd adları nəzərdən qaçırılmışdır.[64] Alim XIV əsr müəllifi Həmdullah Qəzvininin "Nüzhət əl-qülub" ("Ürəklərin ləzzəti") adlı coğrafi əsərini də tərcümə etmişdir.[65] Onun tərcüməsində təqdim olunmuş digər qaynaq XIV-XV əsrlərin müəllifi Əbdürrəşid əl-Bakuvinin kompilyativ səciyyəli "Təlxis əl-Əsar və əcaib əl-məlik əl-qəhhar" ("Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri") əsəridir. Müəllifin Bakı şəhəri haqqında ətraflı məlumat verməsi onun burada yaşadığından xəbər verir. Z.Bünyadovun fikrincə bu əsər hicri 816-cı ilindən (1413/1414-cü) gec olmayaraq yazılmışdır.[66]

---

[61] Ан-Насави, Шихаб ад-Дин Мухаммад. Жизнеописание султана Джалал ад-Дина Манкбурны / Пер. с арабского, предисловие, комментарии, примечания и указатели З.М.Буниятова / Ш.М.Ан-Насави. – Баку: Элм, – 1973. – 494 с.

[62] ал-Хусайни, Садр ад-Дин Али. Ахбар ад-даулат ас-сельджукийа / Пер. З.М.Буниятова / С.А.ал-Хусайни. – Москва: Восточная Литература, – 1980. – 272 с.

[63] ал-Куфи, Ахмад ибн Асам. Книга завоеваний (извлечения по истории Азербайджана VII-IX вв.) / Пер. с араб. З.М.Буниятова / А.А.ал-Куфи. – Баку: Элм, – 1981. – 84 с.

[64] Йакут, ал-Хамави. Муджам ал-Булдан (Сведения об Азербайджане) / ал-Х.Йакут. – Баку: Элм, – 1983. – 65 с.

[65] Хамдаллах Казвини. Нузхат-ал-кулуб. (Материалы по Азербайджану) / Хамдаллах Казвини. – Баку: Элм, – 1983. – 65 с.

[66] Bakuvi, Ə. Təlxis əl-Əsar və əcaib əl-məlik əl-qəhhar / Ə.Bakuvi. – Bakı: Şur, – 1992, – c. 3.

1980-ci ildə Sultaniyyə arxiyepiskopu İoann de Qalonifontibusun "Dünyanın dərk edilməsi Kitabı"ndan Qafqaz xalqları haqqında hissə Z.Bünyadovun tərcüməsində nəşr edildi.[67] Tərcümə arxiyepiskopun Qafqaz səyahəti zamanı yerli xalqlar haqqında topladığı materialları əsasında yazılmış əsərdən edilmişdi. Z.Bünyadov 1984-cü ildə alman səyahətçisi İohan Şiltbergerin "1394-cü ildən 1427-ci ilə qədər Avropa, Asiya və Afrikaya Səyahəti" əsərini nəşr etdirdi.[68] Z.M.Bünyadov 1990-cı ildə Nizaməddin Şaminin (yaxud Şənb-i Qazaninin) Teymur dövrünə aid olan "Zəfərnamə",[69] 1997-ci ildə əs-Səlmaninin "Tarixnamə"[70] əsərlərini tərcümə edərək elmi dövriyyəyə daxil etmişdir.

Alim tariximizin XV-XVI əsrlər dövrünə aid Məhəmməd əl-Hələbinin "Əmir Yaşbəyin yürüşü",[71] Mustafa Əfəndi Selanikinin "Tarix-e Selaniki",[72] Mehmed Solak-zadənin "Tarix",[73] İbrahim Əfəndi Peçevinin "Tarix"[74] materiallarını da çap etdirmişdir.

XVIII əsrə aid "Naxçıvan sancağının müfəssəl dəftəri" 1997-ci ildə Z.M.Bünyadovun redaktəsi ilə işıq üzü görmüşdür.

Z.M.Bünyadovun mənbəşünaslıq sahəsindəki fəaliyyəti yalnız orta əsr qaynaqlarının öyrənilməsi ilə məhdudlaşmırdı. Onun orta əsr dilçi-

---

[67] Галонифонтибус, Иоанн. Сведения о народах Кавказа (1404 г.). (Из сочинения «Книга познания мира») / И.Галонифонтибус. – Баку: Элм, – 1980. – 44 с.

[68] Путешествие Ивана Шильтбергера с 1394 года по 1427 год / Перевод со старонемецкого Ф.К.Бруна // Записки императорского Новороссийского Университета. Год первый. – Одесса: Изд. Л.Нитчк, – 1867. Том I, – 167 с.

[69] Şami, Nizaməddin. Zəfər-namə (Azərbaycanın və qonşu ölkələrin tarixinə dair iqtibaslar). Türk dilinə tərcümə edəni akademik Z.M.Bünyadov / N.Şami. – Bakı: Elm, – 1992. – 33 s.

[70] Ас-Салмани, Тадж ад-Дин. Тарих-наме / Т.Ас-Салмани. – Баку: Элм, – 1997. – 142 с.

[71] Ал-Халаби, Мухаммед. Поход эмира Йашбека / М.Ал-Халаби. – Баку: Элм, – 1985. – 98 s.

[72] Selaniki, Mustafa Əfəndi. Tarix-e Selaniki. 1563-1600-cü illər: Azərbaycan və qonşu ölkələrin tarixinə dair iqtibaslar / Osmanlı dilindən tərcümə Z.M.Bünyadov / M.Ə.Selaniki. – Bakı: Elm, – 1992. – 76 s.

[73] Solak-zadə, Mehmed. Tarix (Azərbaycan tarixinə aid iqtibaslar) / M.Solak-zadə. – Bakı: Elm, – 1992. – 84 s.

[74] Печеви, И.Э. История (Извлечения по истории Азербайджана…) / Пер. и ком. З.М.Буниятова / И.Э.Печеви. – Баку: Элм, – 1988. – 98 с.

lik,[75] seysmologiya,[76] tibb,[77] astronomiya[78] sahələrinə aid tərcümələri barədə də bu fəsildə danışılmışdır.

Onun məhz bu tərcümələri bizə Azərbaycan xalqının, digər qonşu xalqların tarixinə, böyük bir regionun etnomədəni təkamülünə, dini-ideoloji həyatla bağlı olan bir çox problemlərə, tarixi coğrafiya, sərhəd məsələlərinə, ictimai-iqtisadi, siyasi münasibətlərə yeni üslubda yanaşmaq imkanı yaradır.

Beləliklə, Z.Bünyadovun çoxcəhətli elmi yaradıcılığını öyrəndikdə onun görkəmli tərcüməçi, şərqşünas, tarixçi, mənbəşünas olduğunu bir daha görürük.

**"Nəticə"**də tədqiqatın başlıca ümumiləşdirilmələri, dissertasiyanın əsas yekunları öz əksini tapmışdır. Bu zəngin irsi bütövlükdə əhatə etməyin qeyri mümkünlüyünü nəzərə alaraq, akademikin araşdırdığımız orta əsrlər Azərbaycan tarixi üzrə yaradıcılığına dair aşağıdakı elmi nəticələrə gəlmişik:

Alimin Azərbaycan xalqının erkən əsrlər tarixi ilə bağlı olan tədqiqat əsərlərində Vətənimizin tarixi sərhədləri müəyyənləşdirmişdir;

Ərəblərin hücumu ərəfəsində Azərbaycanda ictimai-iqtisadi münasibətlər ətraflı tədqiq edilmiş, dövrün sinxron mənbələrində olan məlumatlara əsaslanaraq ölkənin daxili həyatı araşdırılmış, Alban Apostol kilsəsinin Aquen məclisinin qərarları ilə bağlı məsələlər ilk dəfə olaraq təhlil edilmişdir;

Z.Bünyadov tarix elmində ilk dəfə olaraq alban patriarxı Vironun siyasi fəaliyyətini obyektivcəsinə dəyərləndirmiş, onun Sasani və Xəzər hakimiyyəti dövründəki mövqeyini və rolunu müəyyənləşdirmişdir;

Z.M.Bünyadov Vətən tarix elmində ilk dəfə olaraq ərəbdilli qaynaqların orijinal məlumatlarından istifadə etməklə Azərbaycan xalqının VII-IX əsrlər tarixini araşdırmış, erməni "tədqiqatçılarının" əsərlərində

---

[75] Əl-Əndəlusi, Əsirəddin Əbu Həyyan əl-Əndəlusi. Kitab əl-idrak li-lisan əl-ətrak / Ə.Ə.H.Ə.Əl-Əndəlusi. – Bakı: Azərnəşr, – 1992. –104 s.

[76] Ас-Суйути, Джамал ад-Дин Абд ар-Рахман. Кашф ас-салсала ал-васф аз-залзала (трактакт о землетрясениях) / Перевод с арабского, комментарии и примечания З.М.Буниятова / Д.А.Р.Ас-Суйути. – Баку: Элм, – 1983. – 79 с.

[77] Аз-Захрави, Абу-л-Касим Халаф ибн Аббас. Трактат о хирургии и инструментах. Предисловие // Академик З.М.Буниятов. Избранные сочинения в 3 томах. – Баку: Элм, – 1999. – 206 с.

[78] Абу аль-Касим аль-Захрави // http://711g.wordpress.com/2010/01/13/

Albaniya tarixi ilə bağlı olan qeyri-səhih iddialara müvafiq mənbə materialları ilə tutarlı cavab vermişdir.

Azərbaycanda ərəblərə qarşı baş vermiş mübarizə tarixi də alimin elmi yaradıcılığında öz əksini tapmışdır. Alim Xürrəmilər hərəkatına və Babəkə xüsusi diqqət yetirmişdir. Z.Bünyadov xürrəmilər-babəkilər hərəkatını dərindən təhlil edərək onları "məzdəkilərin ideya ardıcılları" kimi səciyyələndirmiş, Babəkin rəhbərliyi dövründə xürrəmilərin mübarizəsini bilavasitə ərəb xəlifələrinə və onların dini ideologiyasına (İslama) qarşı olduğunu sübut etmişdir;

Alim dövlətçilik tariximizdə Şirvanşahlar və Sacilər dövlətlərinin tədqiqinə diqqət yetirmişdir;

Z.M.Bünyadovun "Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər)" monoqrafiyası Azərbaycan xalqının və Cənubi Qafqaz xalqları tarixinin öyrənilməsində müstəsna əhəmiyyətə malikdir. Alimin bu əsərdəki elmi müddəaları hal-hazırda da ermənilər və onların havadarlarını narahat etməkdədir. 1980-ci ildə həmin əsərinə görə Z.Bünyadova Dövlət Mükafatı təqdim edildi. Onun bu monoqrafiyası da zəngin mənbəşünaslıq bazası zəmini ilə seçilir;

Məşhur alim tərcüməçi, şərqşünas, mənbəşünas da olmuşdur. Qriqoryan kilsəsinin təşəbbüsü ilə saxtalaşdırılaraq erməni dilinə tərcümə edilmiş alban qaynaqlarını Z.Bünyadov Azərbaycan və rus dillərinə tərcümə etmiş, bu mənbələr üzərində araşdırmalar aparmış və şərhlər yazmışdır. Alimin ərəbdilli qaynaqların Azərbaycana dair hissələrinin tərcümələri bizdə VII-IX əsrlər Azərbaycanın siyasi quruluşu, ictimai münasibətləri, Xürrəmilər hərəkatının başlanma səbəbləri, hərəkat iştirakçılarının tərkibi, bu hərəkatın gedişi və məğlubiyyətinin səbəbləri haqqında dolğun təsəvvür yaradır. Onun Osmanlı və xristian qaynaqlarından tərcümələri sayəsində Azərbaycan xalqının XIV-XVII əsrlər tarixi, Əmir Teymurun və Toxtamış xanın yürüşləri, Ağqoyunlu-Osmanlı, Osmanlı-Səfəvi münasibətləri haqqında yeni məlumatlar əldə edə bilirik;

Beləliklə, Z.M.Bünyadovun elmi yaradıcılığı, onun bir çox tarix məsələlərinə yanaşma tərzi, araşdırma gedişində tədqiqata cəlb etdiyi mənbələr tarix elmində və şərqşünaslıqda yalnız Azərbaycan xalqının deyil, bütövlükdə türk, müsəlman xalqlarının tarixinin tədqiqində başlanmış yeni bir mərhələnin əsasını qoydu.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Ziya Bünyadovun yaradıcılığında Babək və Xürrəmilər hərəkatı // Pedaqoji Universitet Xəbərləri. Bakı-№1-2015, s.170-174.
2. Z.M.Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" monoqrafiya-sında Şəki hakimiyyətinə dair // Geo Strategiya. Bakı-№04 (28) iyul-avqust 2015,s.44-47.
3. Akademik Ziya Bünyadovun yaradıcılığında VII-IX əsrlər tarixinin bəzi problemlərinə dair // Tarix və onun problemləri 2. Bakı-2015, s.338-341.
4. Ziya Bünyadovun "Azərbaycan Atabəyləri dövləti (1136-1225)" monoqrafiyasında bəzi məsələlərə dair // Milli Azərbaycan Tarix Muzeyi -2015, s.245-256.
5. Akademik Ziya Bünyadovun yaradıcılığına dair // AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri. Bakı 2014, cild 41-42-43, s. 322-334.
6. Ziya Bünyadovun tədqiqat əsərlərində Şirvanşahlar və Sacilər dövləti // Bakı Dövlət Universiteti. "Kitabi-Dədə Qorqud" və Türk Dünyası. "Kitabi-Dədə Qorqud"un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları 29 dekabr 2015-ci il. Bakı-2015, s.758-763.
7. Z.M.Bünyadovun yaradıcılığında orta əsrlər Azərbaycan tarixinə dair // Qafqaz Universiteti. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların III Beynəlxalq elmi konfransı materialları - II kitab -17- 18 aprel 2015-ci il, Bakı, Azərbaycan, s.1462-1463.
8. З.М.Буниятов о некоторых вопросах истории Кавказской Албании // Національний педагогічний університет імені М.П.Драгоманова. ВГО Українська академія наук. Гілея. Випуск 99 (№8), Київ-2015, s.130-136.
9. The State of Atabays Of Azerbaijan as an Important Stage in The History of Statehood. 11th International Zeugma Conference on Scientific Research, March 18-20, 2024/ Gaziantep, Turkey, s. 491.

Dissertasiyanın müdafiəsi 07 noyabr 2024-cü il tarixində saat 13:00-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/ 1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1073, Bakı, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxivi və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 04 oktyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 02.10.2024

Kağızın formatı: A5

Həcmi: 35678

Tirajı: 100